# Milli Qurtuluşumuzun müəllifi

***15 İyun – Milli Qurtuluş Günü münasibəti ilə Mingəçevirdəki Heydər Əliyev Mərkəzində şəhər icra hakimiyyəti və YAP şəhər təşkilatının birgə elmi-nəzəri konfransı keçirilib.***



Konfrans iştirakçıları – Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, aparatın məsul şəxsləri , YAP şəhər təşkilatının sədri Cavanşir Yusubov, partiya fəalları, hüquq mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış ulu öndərin abidəsi önünə gül çiçək dəstələri qoydular. Mərkəzin foyesində məktəblilərin əl işlərindən ibarət sərgiyə baxış oldu. Sonra ulu öndərin həyat və fəalliyyətinə həsr olunmuş film nümayiş etdirildi. Akt zalına toplaşmış iştirakçılar öncə ulu öndərin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Elmi-nəzəri konfransı giriş sözü ilə açan şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov qeyd etdi ki, 15 iyun 1993-cü il Azərbaycan xalqının dövlətçilik tarixində mühüm əhəmiyyətə malikdir. 1993-cü ilin iyun ayının əvvəlindən başlayaraq ölkəmizdə baş verənləri təhlil etməklə hər birimiz bu qənaətə gəlirik ki, 1993-cü ilin 15 iyun tarixi Azərbaycan xalqı və dövlətçiliyi üçün həqiqətən də qurtuluş tarixidir.

Məlumdur ki, çətin günlərdə, həlledici məqamlarda öz xalqını üzləşdiyi çətinliklərdən xilas etmək yalnız böyük və qüdrətli şəxsiyyətlərin çiyninə düşür. Xalqın taleyində belə şəxsiyyətlərə ehtiyac olan anda həmin şəxsiyyətlərin həyata keçirdiyi missiya onu xalqın lideri, xilaskarı edir. 1993-cü ilin iyununda Azərbaycanda yaranan ictimai-siyasi şərait, yeni vətəndaş müharibəsi, ərazi baxımından parçalanma, xaos, anarxiya şəraiti xalqı bu vəziyyətdən xilas etməyə qadir olan lider zərurəti yaratmışdı. Belə bir xilaskarlıq missiyasını öz üzərinə götürən, həyatını təhlükələrə məruz qoyan ulu öndər xalqın təkidli tələbi ilə iyunun 9-da Naxçıvandan Bakıya qayıtdı. İyunun 15-də deputatlar onu Azərbaycan Respublikası Ali Sovetinin sədri seçdilər. Bununla da daxili və xarici düşmənlərimizin bütün planlarını iflasa uğratdı. Beləliklə, 15 iyun Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu.

Qısa müddətdə həyata keçirilən səriştəli siyasətlə ümummilli liderimiz Azərbaycanı məhv olmaqdan, xalqı isə düçar olduğu bəlalardan xilas etdi. O, 1993-cü il iyunun 15-dəki qayıdışı ilə tariximizin yeni bir mərhələsini – quruculuq, inkişaf və yüksəliş dövrünün əsasını qoydu, dövlətçilik tariximizin şanlı səhifəsini yazdı. Qədirbilən xalqımız böyük xilaskarının xidmətlərini unutmur və 15 İyun – Milli Qurtuluş Gününü hər il yüksək əhval-ruhiyə ilə qeyd edir.

Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov konfransın işinə yekun vuraraq tədbirdə çıxış edən məruzəçilərə dəyərli fikirlərinə görə təşəkkürünü bildirdi. Qeyd edildi ki, hər birimiz ümummilli lider Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısında əvəzsiz xidmətlərinin, bu tarixi şəxsiyyətin rəhbərliyi ilə əsası qoyulan işlərin bu gün onun layiqli davamçısı, cənab Prezident İlham Əliyev tərəfindən davam etdirilməsinin və bu siyasətin nəticəsində çox böyük uğurların əldə olunmasının şahidiyik. Əminik ki, bu uğurlar davamlı olacaq, biz müstəqil dövlətimizin yeni-yeni zəfərlərini və qələbələrini görəcəyik.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***

Xalq qəzeti .- 2022.- 15 iyun.- S.12.